

■ Hidayət Sönməz

## SƏNİ UNUDANDA

Tale yazdığını pozar bəlkə də,
Qəlbimin yarası silinməz daha.
Adın yaddaşımda azar bəlkə də,
Sevgin üzə çıxıb bilinməz daha.

Məni sevərsənmi qayıtsam bir gün?..
Mən Səndən alıram arzu-ilhamı,
Səni sevdiyimi unutsam bir gün
Özümü güzgüdə tanıyarammı?

Həsrətmi taleyin ayırdığı pay,
Hələ çarəsini bilən olmayıb.
Nə qədər axtardım gülüşünə tay -
Hələ sənin kimi gülən olmayıb.

Sənsiz mən kiməm ki cahan dağılsa?
Bu yatan bəxtimi bir də oyatmaz,
Bütün kainatın səsi yığılsa
Sənsiz tək çəkdiyim ahıma çatmaz...

Səsimə səs verən olmaz çağırsam,
Ürəyim min kərə boşalar, dolar...
Əgər ad günümü yaddan çıxarsam
Səni sevdiyim gün ad günüm olar!

Yumub gözlərimi ağ kəfən geyəm -
Tək onda unuda biləcəyəm mən,
“Səni unutmaqçün ölüm” - deyirəm,
Səni unudanda öləcəyəm mən...

## ENƏN EŞQİM

Sənsiz qərib quşam, atılmış yurdam,
İndi nə fərqi var - cavanam, pirəm
Yaralı ürəyim qalıbdı darda,
Mənə əl tutmayan əli neynirəm?

Ömrümün yolları kəsəkli, daşlı,
Çovğunlu, boranlı, qarlı, yağışlı.
Sən ki məni qoydun gözləri yaşlı,
Göz yaşım bəs edər, seli neynirəm?

Bəxtimin saralmış bir gülüsən Sən,
Hələ xəbərin yox, mürgülüsən Sən
Özgə çəmənlərin bülbülüsən Sən,
Şirin-şirin ötən dili neynirəm?

Tellər də günaha bulandı, getdi,
Özgələr boynuna dolandı getdi.
Sənin gözəlliyin talandı, getdi,
Daha xoş görünməz, teli neynirəm?

Röyamda görürəm dönən eşqimi,
Alışıb - bir zaman sönən eşqimi.
Daha istəmirəm enən eşqimi,
Ayaqlar altında gülü neynirəm?

## BƏRZƏX

Dinlə bərzəximdən dinən bülbülü,
Görünməz ruhumdan, içimdən gəl keç,
Daha mən Səninçün ölüyəm, ölü,
Ruhuma salavat çevirdinmi heç?

Günahlar yox olub, gedib dünənlə,
Daha cəhənnəmdə bişəcəyim yox,
Eyni vaxt, eyni yol qət etdik Sənlə,
Sənlə bir qatardan düşəcəyim yox...

Yadımda qalmayıb surətin belə,
Mənmi köç etmişəm, sənmi dünyadan?
Biz tapa bilmədik bir cavab hələ -
Eşqmi zülmkardır, sevənmi nadan?

Sən ayrı yoldan keç, mən ayrı gəzim,
Sən istə - əcələ pay düşərəm mən,
Deyirdin “Dünyamız ayrıdır bizim”,
Səninçün dünyamı dəyişərəm mən!

* * *

Gözlərim həsrətdən nəm çəkir hələ,
Solmuş yanağımda yaşın izi var,
Fələk yollarına gül əkir hələ,
Peşman olacaqsan, geci, tezi var.

Sanma ki, bu eşqi tərk etmək asan,
Bir gün öz qəlbini danlayacaqsan.
Həyatdır, Sən bunu anlayacaqsan,
Dünyanın bir yumşaq, min sərt üzü var.

Sən oldun gözümdə hər gün ucalan,
Ömür oğurlayıb, sevgi bac alan...
Sevgiylə yaranıb, eşqlə qocalan
Qəlbimin sönməyən odu, közü var.

Hər kəsə bir ömür, bir can, bir bədən,
Mən hər gün doğulan, mən hər gün ölən...
Sənə bu dünyada hər şeyi verən;
Mənə heç baxmayan Tanrı gözü var...

Oldum sevgisinə peşman etdiyin,
Bir bax, nə haldadır qoyub getdiyin!
Boylan, qədəmində ölüb itdiyim,
Bəlkə bu yetimin Sənə sözü var?

## GÜNAH SEVDAM

Ömrün payızına düşdü bu görüş,
Niyə rast gəlmədin dünənki mənə?
Bir həzin nəvaziş, bir şirin öpüş
Nə Sənə qismətdir, nə də ki mənə

Vicdan pusqudadır, göz ayıq-sayıq,
Bizim xətamızı duyubdur əlbət.
Biz ya bu günləri unudasıyıq,
Ya da bir romanda yaşarıq xəlvət.

Qəlb sevda üstündən yazdı sevdanı,
Ocağın odunda ocaq qalandı,
Ağıl pis tərəfə yozdu sevdanı: -
Dinsəm ayrılıqdı, sussam yalandı

Nə görüş halaldır, nə vida bizə.
Günah fikirlərdə azıb qalmışam.
İstəyə əyilsəm - demək acizəm,
İstəyimi dansam - aldadılmışam